No: 02 2026
https://doi.org/10.64400/ea26-02-01
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

## HUMANİTAR ELMLƏR

# ORDUBAD ŞƏHƏRİNDƏ ORTA ƏSR TƏHSİL MÜƏSSİSƏSİ – MƏDRƏSƏ

**Hacıfəxrəddin SƏFƏRLİ**[1], **Fəxrəddin EYLAZOV**[2]
Naxçıvan Dövlət Universiteti[1], AMEA Naxçıvan Bölməsi[2]
**Yazışılan müəllif:* seferli949@mail.ru

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *06.06.2026*
*Nəşr edilmə tarixi:* *25.06.2026*

**AÇAR SÖZLƏR:**
Ordubad, təhsil, mədrəsə, vəqf, kitabə, dəftər.

**XÜLASƏ**
Məqalədə Orta əsrlər zamanı Ordubad şəhərində fəaliyyət göstərən mədrəsədən bəhs edilir. Qeyd olunur ki, mədrəsə Ordubad şəhərinin mərkzində yerləşən Came məscidinin yaxınlığında, təxminən 100 metr şimalda inşa edilmişdir. Mədrəsə Came məscidinin və özünün vəqfləri hesabına fəaliyyət göstərmişdir. Mədrəsənin tarixi haqqında onun qərbdən giriş qapısının baş tərəfində kaşı üzərində sarı rənglə fars dilində yazılmış kitabə məlumat verir. Kitabənin mətnindən aydın olur ki, onun əsası 1714-cü ildə qoyulmuşdur. Həmçinin kitabədə mədrəsəni tikdirən və tikintini aparan şəxslər haqqında da məlumat verilmişdir. Bu məlumat təsdiq edir ki, Azərbaycan Səfəvi dövlətinin hökmdarları və yüksək vəzifəli məmurları bu təhsil müəssisəsinə qayğı ilə yanaşmışlar. Bu kitabədən bir qədər yuxarıda, giriş qapısının çatma hissəsində cızma üsulu ilə baçqa bir kitabə vardır. Kitabənin məlumatından aydın olur ki, məscid 1915-ci ildə Hacı Mirzə Lütfulla tərəfindən təmir etdirilmişdir. Həmçinin məqalədə Orta əsr mənbələri və arxiv materialları əsasında mədrəsənin fəaliyyəti və vəqfləri haqqında məlumat verilir. Yekun olaraq belə bir nəticəyə gəlinir ki, Ordubad şəhər mədrəsəsi Azərbaycanın inkişaf etmiş təhsil müəssisələrindən biri olmuşdur. 1920-ci ildə sovet hakimiyyətinin qurulması ilə mədrəsə fəaliyyətini dayandırmışdır.

## GİRİŞ

Məlumdur ki, Orta əsrlər zamanı təhsilin inkişafında mədrəsələr mühüm rol oynamışdır. Ərəb dilində "dırs oxunan yer" mənasını verən mədrəsələr müsəlman Şərqində fəaliyyət göstərən orta və ali təhsil müəssisələri idilər. Belə təhsil mərkəzlərindən biri də, Ordubad şəhər mədrəsəsi idi. Zəmanəsinin nüfuzlu təhsil ocaqlarından biri olan bu mədrəsə Naxçıvan bölgəsində, bütövlükdə Azərbaycanda və onun hüdudlarından kənarda belə məşhur olmuşdur. Qonşu ölkələrdən gələn tələbələrin də təhsil aldığı bu təhsil ocağı Azərbaycan feodal hakimlərinin, dövlət aparatında mühüm vəzifə tutan məmurların, görkəmli şəxsiyyətlərin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Onun yetirmələri Təbriz, Bağdad, Nəcəf və başqa bu kimi elm, təhsil və mədəniyyət mərkəzlərində öz təhsillərini davam etdirərək tanınmış şəxsiyyətlərə çevrilmiş, müsəlman Şərqinin bir sıra ölkələrində fəaliyyət göstərmişlər (Tərbiyət M., 1997). Tam əminliklə demək olar ki, Azərbaycanda və ətraf ölkələrdə "Ordubadi" nisbəsi ilə yaşayıb fəaliyyət göstərən bir sıra görkəmli şəxsiyyətlər ilk təhsillərini məhz bu mədrəsədə almışlar.

## ƏSAS HİSSƏ

Mədrəsə bütün müsəlman ölkələrində olduğu kimi, Ordubad şəhərinin mərkəzində yerləşən böyük Came məscidinin yanında təsis olunmuş, məscidin və özünün vəqfləri hesabına fəaliyyət göstərmişdir. Came məscidindən təxminən 100 metr şimalda, iki mərtəbəli binada yerləşən mədrəsə binası dərs otaqlarından, tələbələrin yaşaması üçün xüsusi hücrələrdən, təsərrüfat binalarından ibarət olmuşdur. Dördbucaqlı həyətin ətrafında inşa edilmiş mədrəsə binasının girişi şərq tərəfdəndir. İki mərtəbəli binanın həyət fasadları hər iki mərtəbədə geniş çatma tağlarla ayrılmışdır ki, bu da Azərbaycan Səfəvi dövrü memarlığında geniş tətbiq edilən bir üsul olmuşdur. Sovet hakimiyyəti illərində uzun müddət İpəkçilik idarəsi yerləşən bina müəyyən qondarma əlavələrə məruz qalmasına baxmayaraq mədrəsə binası özünün ilkin görkəmini saxlamışdır. Memarların fikrincə bu bina Şimali Azərbaycanda zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir

(Усейнов М., Бретаницкий Л., Саламзаде А., 1963).

Ordubad şəhər mədrəsəsi fəaliyyət göstərdiyi dövrdə Azərbaycan feodal dövlət aparatının yüksək rütbəli məmurları tərəfindən himayə və idarə olunmuşdur. Bunu bir sıra tarixi sənədlərlə yanaşı, mədrəsə kompleksinə giriş qapısının baş tərəfində indiyədək nisbətən salamat vəziyyətdə qalan kitabələr də təsdiq edir. Zaman keçdikcə təbii qüvvələrin təsirindən bəzi yerləri qopub düşərək məhv olmuş kitabə tünd göy rəngli kaşı üzərində sarı rənglə, gözəl nəstəliq xətti ilə fars dilində yazılmışdır. Kitabənin salamat qalan hissəsinin (şəkil 1) tərcüməsi belədir:

[خ]ان حسین عادل امین که خرج پر حزینه که سلم بود قدس ....... بلند مرتبه مجلس نویس عالیجاه که گیرد از رقم او دبیر عقل ارشاد / ظهیر دولت شاهی محمد ابراهیم / در فضایل علم و عمل وسپاه بود بنای مدرییه فکر عالیس افراشت/ برای...../ بقصد حالی از عرض و اعتقاد درست..... [ع]لم سود در سواد اردوباد /برای ضابطه سال این متین بنای/ رفیع مکان گفت کامل فضل آباد ۱۱۲٦ کتبه محمّد اسماعیل العبد النضیری /این بنای خیر بسعی و سرکاری حاجی محمّد حاجی صالح بن عابد دواتدار اتمام یافت



**Şəkil 1.**

“Salam olsun müqəddəs tikintinin bahalı xərcini qəbul edən adil, əmin Hüseyn xana. Yüksək vəzifəli məclisnəvis (sarayda baş verən əhvatları, hərbi yürüşləri, şahın əmrlərini və s. qeydə alan şəxs-H.S., F.E.), nəcib, öz simasından müdriklik və rəhbərlik götürən, şah dövlətinin köməkçisi (Zəhir Dövlət şahi) Məhəmməd İbrahim elm, əməl və orduya xidmət kimi fəzilətlər, ülvi bir düşüncə ilə, düz inanc və inam hissini ifadə edərək, elmin faydası, Ordubad əhlinin savadlanması üçün mədrəsə binasının təməlini qoydu. Bu möhkəm binanın tarixinin yazılması üçün yüksək məqam sahibi dedi, kamil, fəzilətli yer abad oldu. 1126. Kitabəni yazdı Məhəmməd İsmayıl əl-Əbd ən-Nəsiri. Bu xeyirli bina Hacı Məhəmmədin və Abid dəvatdarın (hökmdarın mürəkkəbqabısını və qələmini daşıyan şəxs “dəvatdar” adlanırdı-H.S., F.E.) oğlu Hacı Salehin səyi və rəhbərliyi ilə tamamlandı”.

Hicri-qəməri təqvimi ilə 1126 hicri ili miladi təqvimi ilə 1714-cü ilə müvafiqdir.

Kitabənin mətnindən aydın olur ki, mədrəsə elmin və təhsilin inkişafı naminə yüksək vəzifəli, çox hörmətli, şah dövlətinin köməkçisi (Zəhir Dövlət) Məhəmməd İbrahim tərəfindən hicri 1126-cı ildə (miladi ilə 1714-cü il) bina olunmuşdur. Qeyd etmək yerinə düşər ki, Zəhir əd-Din Mirzə Məhəmməd İbrahim həmin ildə Təbriz şəhərində də mədrəsə tikdirmişdir (Неймат М.С., 2001).

Kitabədən göründüyü kimi, Ordubad mədrəsəsi Səfəvi hökmdarı Şah Sultan Hüseynin (1694-1722-ci illər) dövründə inşa etdirilmiş, onun tikintisi dövlət aparatında mühüm vəzifə tutan adamların başçılığı ilə həyata keçirilmişdir. Kitabənin məlumatlarına əsasən deyə bilərik ki, mədrəsənin tikintisi böyük xərc hesabına başa gəlmişdir. Bu xərci isə həmin vaxt Səfəvilər dövlətinin başında duran Şah Sultan Hüseyn ödəmişdir. Məhz buna görə də, kitabənin əvvəlində “Salam olsun müqəddəs tikintinin bahalı xərcini qəbul edən adil, əmin Hüseyn xana” sözləri qeyd olunmuşdur.

Tarixdən məlumdur ki, Ordubad şəhərindəki mədrəsənin bina edildiyi illər, yəni XVIII əsrin əvvəlləri Səfəvi Qızılbaş dövləti üçün çox ağır dövr idi. Belə ki, XVII əsrin sonlarında dövlətdə yaranmış böhranlı vəziyyət XVIII yüzilliyin əvvəllərində də davam edirdi. Dövlətin zəifləməsindən istifadə edən bəzi qüvvələr müstəqilliyə can atır, şaha tabe olmaq istəmirdilər. Belə böhranlı bir dövrdə, maliyyə vəziyyətini düzəltməkdən ötrü pul kəsmək üçün hətta Ərdəbildəki Şeyx Səfi

məqbərəsindəki qiymətli əşyalardan istifadə olunduğu bir vaxtda Ordubad mədrəsəsinin dövlət səviyyəsində inşa etdirilməsi Səfəvi şahlarının təhsilə necə böyük əhəmiyyət verdiyini göstərir.

Məlumdur ki, Ordubad şəhərində bu mədrəsənin inşa olunmasından 10 il sonra bütün Naxçıvan ərazisi 1724-cü ildə Osmanlı dövləti tərəfindən tutuldu. Ərazini tutduqdan sonra osmanlılar orada yeni üsul-idarə tətbiq edərək "Naxçıvan sancağı" deyilən inzibati ərazi vahidi yaratdılar. Bundan sonra, onlar sancaqda yaşayan və vergi verəcək kişiləri siyahıya aldılar. 1727-ci ildə keçirilən bu siyahıyaalmanın nəticələri xüsusi "dəftər"də qeyd olunurdu. Həmin "Dəftər"də Ordubad mədrəsəsi, onun vəqfləri haqqında dəyərli faktlarla rastlaşırıq. "Naxçıvan sancağının müfəssəl dəftəri" adlanan həmin sənədin məlumatlarından aydın olur ki, 1727-ci ildə mədrəsə şəhərdəki 30 dükanın hərəsindən ayda 15 ağça, Təknə hamamı gəlirinin yarısını (9000 ağça), Ordubadda olan isgələnin gəlirindən nəqd olaraq 4800 ağça vəqf olaraq alırmış (Naxçıvan sancağının müfəssəl dəftəri, 1997). "Dəftər"də mədrəsənin vəqflərindən əldə olunan gəlirin mədrəsənin məsrəfləri üçün ayrılmış hissəsi də qeyd olunmuşdur. Belə ki, bu gəlirdən müdərris üçün 30 ağça, mütəvəllilik üçün 12 ağça, qapıçı üçün 6 ağça maaş verilirmiş. Mənbədən məlum olur ki, vəqfin gəlirindən hər tələbə üçün 5 ağça verilirmiş.

"Müfəssəl dəftər"də mədrəsənin gəlirlərinin artıq qalan hissəsinin təyinatı da göstərilmişdir. Nəzərdə tutulmuşdur ki, həmin vəsaiti mütəvəlli qoruyub saxlasın və gərək olduqca mədrəsənin və onun vəqfinə aid olan tikililərin təmirinə sərf eyləsin (Naxçıvan sancağının müfəssəl dəftəri, 1997).

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verilmiş bu məlumatlar təsdiq edir ki, Naxçıvan ərazisinin Osmanlı idarəçiliyində olduğu dövrdə Ordubad mədrəsəsi fəaliyyət göstərmiş, Naxçıvan ərazisində əsas təhsil müəssisələrindən biri kimi öz funksiyasını yerinə yetirmişdir. Qeyd etmək lazımdır ki, Ordubad mədrəsəsi "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan bölgəsində vəqf gəlirləri olan yeganə mədrəsə nümunəsi kimi qeyd olunmuşdur. Bu fakt bir daha təsdiq edir ki, Ordubad şəhər mədrəsəsi XVIII yüzillikdə nəinki Naxçıvan bölgəsində, eyni zamanda Azərbaycanda əhəmiyyətli tədris müəssisələrindən biri olmuşdur.

Naxçıvan ərazisi Rusiya qoşunları tərəfindən işğal edildikdən az sonra əraziyə gəlmiş İ.Şopen Ordubad məscidinin yanında mədrəsənin fəaliyyət göstərdiyini qeyd edir (Шопен И., 1852). O, yazır ki, mədrəsədə ilhaqdan əvvəl 60 uşaq oxuyurdu (Шопен И., 1852). Həmin vaxt Ordubad şəhərində 767 ailədə birləşən 3262 nəfər müsəlman türk yaşayırdı (Шопен И., 1852). Fikrimizcə, elm və təhsilin zəif inkişaf etdiyi XIX yüzilliyin I yarısında bu qədər əhali yaşayan bir şəhərin mədrəsəsində 60 nəfər tələbənin oxuması faktı o qədər də pis göstərici deyildir.

İ.Şopenin məlumatlarından aydın olur ki, Naxçıvan ərazisi Rusiyaya ilhaq edildiyi zaman ərazidə ancaq iki yerdə – Naxçıvan və Ordubad şəhərlərində mədrəsə var imiş (Шопен И., 1852). Buradan görünür ki, bu mədrəsələrdə təkcə adları qeyd olunan şəhərlərdən gəlmiş uşaqlar deyil, ümumiyyətlə, Naxçıvan bödgəsindəki bütün yaşayış məskənlərindən gəlmiş uşaqlar da təhsil almışlar. XIX yüzilliyə aid ədəbiyyat materialları şahidlik edirlər ki, Ordubad mədrəsəsi bütün XIX yüzillik boyu öz fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Dövlət Tarix Arxivinin fondunda saxlanan sənəddə Ordubad şəhər mədrəsəsinin 1887-ci ilə aid vəqf mülkiyyəti aşağıdakı şəkildə qeyd olunmuşdur: 1. Ordubadın Aşağı Kürdətal məhəlləsində sahəsi 29 x 6 zər, illik gəliri 200 rubl olan hamamın yarısı; 2. Yenə orada, illik gəliri 20 rubl olan 5 dükan; 3. Anbaras məhəlləsində sahəsi 41 x 6 zər, gəliri və çıxarı 7 rubl olan bir tövlə; 4. Yenə orada, sahəsi 10 x 6 zər, gəliri və çıxarı 36 rubl olan 1 dükan; 5. Sahəsi 83 x 7 zər, gəliri və çıxarı 30 rubl olan bir dükan; 6. Ordubad şəhərinin yuxarı məhəlləsində sahəsi 203 x 30 zər, illik gəliri və çıxarı 40 rubl olan düyü plantasiyası; 7. Anbaras məhəlləsində sahəsi 84 x 44 zər, illik gəliri 32 rubl olan tut bağı; 8. Sahəsi 61,5 x 11 zər, illik gəliri və çıxarı 32 rubl olan meyvə bağı; 9. Ordubad şəhəri tərəfdə, Araz çayı üzərindəki Siyah Rud kəndi yaxınlığında yerləşən 16 səhmli gəmidən I səhm. 1887-ci ildən sonra gəmi sıradan çıxmış, gəliri yoxdur; 10. İran dövlətinin Əfşar kəndinin Kərgər məhəlləsindəki mülkün 10 danqı. Gəliri 150 rubl, çıxarı 50 rubldur; 11. Anbaras məhəlləsində kərpic bişirmək üçün peçi ilə birlikdə bir parça bağ. Sonralar orada poçt yerləşirdi. Indi dağılmışdır.

Sənəddən görünür ki, axırıncıdan başqa, bütün vəqf mülkiyyəti Səfəvilər dövlətində ali hərbi vəzifə tutan və 1714-cü ildə mədrəsə binasını inşa etdirən Məhəmməd İbrahim xan Zəhir əd-Dövlə tərəfindən bağışlanmışdır. Vəqf edənin tapşırığı ilə bu mülkiyyətdən gələn gəlirlərin mədrəsədə

oxuyan tələbələrin və dərs deyən müdərrislərin tələbatını ödəmək üçün xərclənməsi nəzərdə tutulmuşdur (Неймат M.C., 2001).

Ordubad mədrəsəsinin 1887-ci ildəki vəqf mülkiyyəti ilə 1727-ci ildəki, yəni 160 il əvvəlki, “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə qeyd olunan vəqf mülkiyyətini müqayisə etsək aydın olur ki, XIX yüzillikdə mədrəsənin vəqf mülkiyyəti bir neçə dəfə artıq olmuşdur. Bu isə öz növbəsində mədrəsənin bütün varlığı ərzində, o cümlədən XIX əsrdə nəinki Ordubad şəhərinin, bütövlükdə Azərbaycanın təhsil və ideoloъi həyatında mühüm rol oynadığını təsdiq edir.

Görkəmli yazıçı, əslən Ordubad şəhərindən olan M.S.Ordubadi bu mədrəsə haqqında maraqlı məlumatlar vermişdir. O, şəhərdəki təhsil müəssisələri haqqında danışarkən 1886-cı ildə Ordubadda Mirzə Baxşı, Kərbəlayi Əli, Axund Sara (qadın), Şəban axund, yaxud Şəhrəbanu (qadın), Molla Lütvəli və Molla Qasımın məktəbləri olduğunu göstərməklə yanaşı mədrəsədə dərs deyən çoxlu müəllimin, o cümlədən Hacı Mirmahmudun, Hacı Molla Əli Kuhtaminin, Molla Məmmədhəsənin, Hacı Məmmədağanın adlarını da çəkir (Ordubadi M.S., 1996).

M.S.Ordubadi yazır ki, 1892-ci ildə Ordubad şəhərində M.T.Sidqinin müəllim təyin olunduğu yeni üsulda məktəb açılır və həmin məktəb mədrəsə binasında fəaliyyətə başlayır. “Əxtər” adlanan bu məktəblə paralel olaraq mədrəsə də öz fəaliyyətini davam etdirmişdir.

Mədrəsə Ordubadda sovet hakimiyyətinin qurulduğu 1920-ci ilədək fəaliyyət göstərmişdir. Bunu təsdiq edən ən sanballı faktlardan biri mədrəsə kompleksinə giriş qapısının baş tərəfində kaşı üzərində sarı rənglə yazılmış 1714-cü il tarixli kitabədən təxminən 2,5 metr yüksəklikdə, darvazanın baş tərəfindəki çatma hissədə gəc üzərində cızma yolu ilə yazılmış və üstü qara rənglə işlənmiş kitabədir. İllər keçdikcə təbii qüvvələrin, xüsusilə yağış və qar sularının təsiri ilə rəngi getmiş kitabənin (şəkil 2) mətni belədir:

هو[الباقی] تعمیر مدرسه و بناء الطاق مع تجدید ........ الجنوب بانی بنا حاجی میرزا لطف الله فی سنه ۱۳۳٤ هجری



**Şəkil 2.**

O [əbədidir]! Mədrəsənin təmiri və binanın tağının yenilənməsi və cənub ... binanin banisi Hacı Mirzə Lütfullahdır. 1334-cü il hicridə.

1334 h.i.=09.11.1615-27.10.1916-cı il.

Kitabənin mətnindən aydın olur ki, mədrəsə kompleksi hicri-qəməri tarixilə 1334-cü ildə (miladi tarixi ilə 1915-ci il) təmir edilmişdir. Həmin vaxt kompleksin cənub tağı da yenilənmiş, hansı isə bina inşa edilmişdir. Bütün bu işlər Hacı Mirzə Lütfulla tərəfindən yerinə yetirilmişdir. Hacı Mirzə Lütfulla əslən Ordubad şəhərindən olmuş, ilk təhsilini Ordubadda aldıqdan sonra İraqın Nəcəf şəhərinə getmiş, orada ali təhsil alaraq müctəhid rütbəsi ilə Ordubada qayıtmışdı (Ordubadi M.S., 1996).

Bu fakt təsdiq edir ki, mədrəsə əvvəlki əsrlərdə olduğu kimi XX yüzillikdə də şəhərin maarif-təhsil və mədəni-ideoloji həyatında mühüm rol oynamış, imkanlı şəxslərin və görkəmli adamların diqqət mərkəzində olmuşdur. Arxiv materialları təsdiq edir ki, həmin vaxt mədrəsənin vəqflərindən olan gəliri 2589 rubl olmuşdur (Кулиева В.А., 1999).

Ordubad mədrəsəsi Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə öz fəaliyyətini dayandırmışdır. Bolşeviklərin gəlməsindən 6 il sonra şəhərdə olmuş rus alimi V.M.Sısoyev yazır ki, İ.Şopenin haqqında bəhs etdiyi Came məscidinin yanındakı mədrəsə indi yoxdur. Vaxtilə bütün

İranda və Naxçıvan bölgəsində mühüm dini mərkəz kimi şöhrət qazanan, geniş və gözəl bir binada yerləşən bu ali müsəlman ruhani məktəbi hazırda fəaliyyətini dayandırmışdır (Сысоев В.М., 1928).

## NƏTİCƏ

Bütün bunlara yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, Ordubad şəhərindəki bu mədrəsə Azərbaycanın yüksək səviyyədə inkişaf etmiş təhsil müəssisələrindən biri olmuşdur. Orta əsr qaynaqlarında bizədək əslən Ordubaddan olan, Azərbaycanda və onun hüdudlarından xaricdə, Yaxın və Orta Şərqin bir sıra elm ocaqlarında, təhsil müəssisələrində fəaliyyət göstərən çoxlu elm adamlarının, şairlərin və başqa görkəmli şəxsiyyətlərin adları gəlib çatmışdır. "Ordubadi" nisbəsi ilə təqdim olunan həmin adamların çoxunun uşaqlıq və ilk təhsil illəri Ordubad şəhərində keçmiş, sonradan təhsillərini müsəlman Şərqinin məşhur elm və təhsil ocaqlarında, o cümlədən Bağdaddakı "Nizamiyyə" mədrəsəsində, Təbrizdə Rəb-i Rəşididə, Nəcəfdə və başqa yerlərdə davam etdirərək ali təhsil almış və elm aləmində parlamışlar. Həmin görkəmli şəxsiyyətlər ilk təhsillərini Ordubad şəhərində aldıqlarından demək olar ki, onlar Ordubad mədrəsəsinin məzunları olmuşlar. Onların elm aləmində şöhrət qazanmasında və tanınmasında elmin əsaslarını öyrəndikləri Ordubad mədrəsəsinin xüsusi rol oynadığı danılmaz həqiqətdir.

Sonda qeyd etmək lazımdır ki, mədrəsə binası zaman keçdikcə müəyyən aşınmalara məruz qalmış, hətta keçən yüzillikdə ona bəzi əlavələr edilmişdir. Hazırda mədrəsə kompleksinin bərpası istiqamətində hazırlıq işləri aparılır. İnanırıq ki, bərpa işləri tələblərə uyğun, yüksək səviyyədə aparılacaq və bina əvvəlki görkəminə qaytarılacaqdır.

## ƏDƏBİYYATLAR


Naxçıvan sancağının müfəssəl dəftəri. (1997). Giriş və tərcümənin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Sabah.

Tərbiyət M. (1987). Danişməndani – Azərbaycan. Tərcümə edənlər: İsmayıl Şəms, Qafar Kəndli. Bakı: Azərnəşr.

Кулиева В.А. (1999). Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевана, Эриванской губернии и Зангезура в ХЫХ –начале ХХ вв. Баку: Элм.

Неймат М.С. (2001). Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI –Yeni Nəşrlər Evi.

Ordubadi M.S. (1996). Həyatım və mühitim. Bakı: Azərnəşr.

Сысоев В.М. (1928). Древности Нахичеванской ССР. Отдельный оттиск. Из4-го выпуска Известий "Азкомстарис"а, Баку. с. 123-215.

Усейнов М., Бретаницкий Л., Саламзаде А. (1963). История архитектуры Азербайджана. Москва: Госстройиздат.

Шопен И. (1852). Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт- Петербург. Типография императорской АН.


## SUMMARY

## MEDIEVAL EDUCATIONAL INSTITUTION IN ORDUBAD CITY – MADRASA


**Hajifakhraddin Safarli[1], Fakhraddin Eylazov[2]**

**Nakhchivan State University[1], Nakhchivan Branch of ANAS[2]**



The article discusses the madrasah that operated in the city of Ordubad during the Middle Ages. It is noted that the madrasah was built near the Jame Mosque in the center of the city of Ordubad, approximately 100 meters north. The madrasah operated at the expense of the Jame Mosque and its own endowments. An inscription written in yellow Persian on the tile at the head of its western entrance door provides information about the history of the madrasah. From the text of the inscription,

it is clear that its foundation was laid in 1714. The inscription also provides information about the people who built the madrasah and led the construction. This information confirms that the rulers and high-ranking officials of the Azerbaijani Safavid state treated this educational institution with care. Slightly above this inscription, in the doorway of the entrance door, there is another inscription in the form of a drawing. From the information on the inscription, it is clear that the mosque was renovated in 1915 by Haji Mirza Lutfulla. The article also provides information about the activities and foundations of the madrasah based on medieval sources and archival materials. In conclusion, it is concluded that the Ordubad city madrasah was one of the developed educational institutions of Azerbaijan. With the establishment of Soviet power in 1920, the madrasah ceased its activities.

***Keywords:*** *Ordubad, education, madrasa, foundation, inscription, notebook.*

## РЕЗЮМЕ

## СРЕДНЕВЕКОВОЕ УЧЕБНОЕ ЗАВЕДЕНИЕ В ГОРОДЕ ОРДУБАД – МЕДРЕСЕ

**Гаджифахреддин Сафарли, Фахреддин Ейлазов**
**Нахчыванский государственный университет[1], Нахчыванское отделение НАНА[2]**

В статье рассматривается медресе, действовавшее в городе Ордубад в Средние века. Отмечается, что медресе было построено рядом с мечетью Джаме в центре города Ордубад, примерно в 100 метрах к северу. Медресе функционировало за счет мечети Джаме и собственных средств. Надпись, написанная желтым персидским языком на плитке над западной входной дверью, содержит информацию об истории медресе. Из текста надписи ясно, что его фундамент был заложен в 1714 году. Надпись также содержит информацию о людях, которые строили медресе и руководили строительством. Эта информация подтверждает, что правители и высокопоставленные чиновники азербайджанского государства Сефевидов бережно относились к этому учебному заведению. Чуть выше этой надписи, в дверном проеме входной двери, находится еще одна надпись в виде рисунка. Из информации на надписи ясно, что мечеть была отреставрирована в 1915 году Хаджи Мирзой Лутфуллой. В статье также приводится информация о деятельности и основании медресе на основе средневековых источников и архивных материалов. В заключение делается вывод, что городское медресе Ордубада было одним из развитых учебных заведений Азербайджана. С приходом к власти Советского Союза в 1920 году медресе прекратило свою деятельность.

***Ключевые слова:*** *Ордубад, образование, медресе, фонд, надпись, тетрадь*.